



Qloballaşma şəraitində dünyanın əksər ölkələrində etnik, irqi, dini və mədəni müxtəlifliyə rast gəlinir. Fərqli sivilizasiyaların qovuşduğu məkan kimi Azərbaycanda da milli-mədəni rəngarənglik müşahidə edilir, ölkəmizdə müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin birgəyaşayışına lazımi şərait yaradılır. Müxtəlif milli qrupların bərabərhüquqlu fəaliyyətinə zəmanət verən multikulturalizmin Azərbaycan modeli etnik, dini və mədəni dəyərlərin inkişafını təmin edir.

# Multikulturalizm və tolerantlığın Azərbaycan nümunəsi

## İlham Əliyevin mütərəqqi siyasəti bu sahələrdə formalaşmış ənənələri daha da möhkəmləndirmişdir

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş bu modelin müasir dövrdə uğurlu inkişafı isə Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin adı ilə bağlıdır. Prezident qeyd edib ki, - "Azərbaycanda bütün xalqların, bütün konfessiyaların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar və yaşayacaqlar". Elə bu siyasi iradənin nəticəsidir ki, bu gün Azərbaycan dünyada multikulturalizm prinsiplərinin əsas təbliğatçısı və birgəyaşayış ənənələrinin müdafiəçisi kimi örnək dövlətlərdən birinə çevrilib.

Multikulturalizmin Azərbaycanda dövlət siyasəti kimi qəbul edilməsinin əsas səbəblərindən biri də bunun üçün münbit mühitin olmasıdır. Bu model o halda dövlət siyasətinə çevrilə bilir ki, həmin ölkədə multikultural cəmiyyət və həmin cəmiyyəti düzgün idarə etməyi bacaran rəhbərlik olsun. Multikultural cəmiyyətin formalaşmasına isə müxtəlif xalqların uzun illər birgə yaşamaları, miqrasiya prosesləri, xalqlar və etnik qruplar arasında əlaqələrin inkişaf etdirilməsi və digər bu kimi mühüm faktorlar təsir göstərir. Bu da öz növbəsində düzgün idarəetmə nəticəsində çoxmədəniyyətli dövlət nümunəsi yaradır. Məhz İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən multikulturalizm siyasəti ölkəmizdə çoxmədəniyyətliliyin inkişafını və Azərbaycanda yaşayan müxtəlif xalqların və etnik qrupların mədəni dəyərlərinin dünyaya təbliğini təmin edib, dövlət-din münasibətlərini yüksək səviyyəyə qaldırıb. Prezident İlham Əliyev bu barədə deyib ki, multikulturalizm Azərbaycanda həyat tərzidir: "...Əsrlərboyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Biz bu gün də çalışırıq ki, öz təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək".

### Xüsusi diqqət və qayğının təzahürü

Dövlətimizin multikultural vəziyyətini daha da yaxşılaşdırmaq məqsədilə Prezident İlham Əliyevin göstərişi ilə davamlı olaraq mühüm əhəmiyyət kəsb edən işlər həyata keçirilir. Prezidentin sərəncamları ilə ölkədə 2014-cü ildə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti (red: hazırkı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası, multikulturalizm və dini məsələlər şöbəsi), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təsis edilib. Prezidentin 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. "Multikulturalizm ili"nin elan edilməsi İlham Əliyevin dünyaya növbəti sülh mesajı idi. Bundan başqa, Prezidentin 10 yanvar 2017-ci il tarixli sərəncamı ilə 2017-ci il ölkəmizdə "İslam Həmrəyliyi ili" kimi qeyd edilib. Bu da Azərbaycanda dinlərarası və millətlərarası münasibətlərə olan xüsusi diqqət və qayğının təzahürüdür. Həmçinin 2021-ci ilin mayında Şuşanın azad olunmasından sonra keçirilən ilk "Xarıbülbül" festivalında ölkəmizdə yaşayan azsaylı xalqların musiqi ifalarına xüsusi yer verilməsi də təsadüfi deyil. Elə 44 günlük Vətən müharibəsində bütün etnik və dini icmaların nümayəndələrinin torpaqlarımızın işğaldan azad edilməsi uğrunda vahid amal ətrafında mübarizəyə qalxmaları ölkəmizdəki milli birlikdən xəbər verir. Bu, Azərbaycanda əsrlərlə mövcud olmuş tolerant mühitin və multikulturalizm dəyərlərinin qorunub saxlanmasının təsdiqidir.

Ölkəmizdə yaşayan xalqların və etnik qrupların mədəni dəyərlərinin qorunması və multikulturalizmin Azərbaycanın daxili siyasətinin əsasını təşkil etdiyini göstərir. Multikulturalizm həm də xarici siyasət xəttinə ciddi təsir göstərir. Bu mənada ölkədə müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin rahatlığının təminatı, sabitlik və təhlükəsizlik dövlətimizin xarici siyasətinin sülhyönümlü olmasına münbit zəmin yaradır. Ölkə daxilində fərqli millətlərə, xalqlara, etnik qruplara məxsus insanlara qarşı isti və bərabərhüquqlu münasibət dövlətimizin xarici ölkələrə münasibətində də aydın sezilir.

Azərbaycanda milli azlıqların müdafiəsinə həmişə xüsusi diqqət olub. Təsadüfi deyil ki, dövlətimiz milli azlıqlarla bağlı beynəlxalq konvensiyalara qoşulub, milli azlıqların sıx yaşadıqları bölgələrdə sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və digər sahələrdə müxtəlif layihələr həyata keçirilir. Onların hüquqlarının müdafiəsinə yönəldilmiş belə layihələrin bir çoxu Prezident İlham Əliyevin imzaladığı bir sıra sərəncamlarla icra olunur.

### Mükəmməl model

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla inkişaf etdirilən multikulturalizmlə bağlı böyük təcrübə əldə edilib. Bu gün ölkəmizin multikulturalizm təcrübəsi dünyanın bir sıra dövlətlərinin diqqətini cəlb edir və öyrənilir. Bu təcrübənin əhəmiyyətindən danışan Prezident İlham Əliyev vurğulayıb: "Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır". Bu bir daha təsdiq edir ki, Azərbaycan dünyaya sülh mesajı ötürür və əmin-amanlığın hakim olmasında maraqlıdır.

Əlbəttə ki, müxtəlif hərbi toqquşmaların və humanitar böhranların yaşandığı bir vaxtda multikulturalizmi dövlət siyasəti kimi müəyyən etmək çətin olduğu qədər də vacibdir. Təəssüf ki, müasir dünyamızda milli və dini zəmində yaranan böhran nümunələri sürətlə çoxalır. Uzun illər birgə yaşayan xalqlar, mədəni yaxınlığı olan millətlər düşmənə çevrilirlər. Müxtəlif ölkələrdə, xüsusilə də Qərbdə islamofobiya gündən-günə genişlənir, Avropanın yenilikçi addımları bəzi xalqlar tərəfindən, ümumiyyətlə, qəbul edilmir və yaxud da dövlətlər tərəf seçib digərlərinə qarşı aqressiya nümayiş etdirir və sair. Bir sözlə, günümüzdə sivilizasiyalararası ziddiyyət kəskin hiss edilir.

Belə olan halda isə öz ərazisində məskunlaşan bütün xalqların mehriban və dostluq şəraitində birgəyaşayışını, onların inkişafını, adət və ənənələrinin qorunmasını təmin edən dövlətimizin multikulturalizm təcrübəsi diqqət çəkməyə bilməzdi. Hazırda ciddi problemlərlə üzləşən Qərb multikulturalizmi bu mənada Azərbaycan dövlətinin daha səmərəli modelindən faydalana bilər. Təsadüfi deyil ki, "multikulturalizmin Azərbaycan modeli" termini siyasi leksikonda geniş istifadə olunur.

### İlham ƏLİYEV: "Biz bu yolla gedirik və dünyaya bu yolu göstəririk"

Sevindirici haldır ki, bu günə qədər ölkəmizdə dini zəmində heç bir qarşıdurma müşahidə edilməyib. Ölkəmizdə dinlərarası münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan İlham Əliyev deyib: "Heç vaxt ölkəmizdə dini zəmində heç bir qarşıdurma olmamışdır və olmayacaqdır. Hətta heç bir anlaşılmazlıq da olmamalıdır və yoxdur. Biz bu yolla gedirik və dünyaya bu yolu göstəririk". Bu, multikulturalizmin Azərbaycan dövlətinin daxili siyasətinin tərkib hissəsi olmasının mühüm təzahürlərindən biridir.

Hüquqi və dünyəvi dövlət olan Azərbaycanda din dövlətdən ayrıdır. Ölkəmizdə bütün dinlərin və dini məzhəblərin nümayəndələri qanun qarşısında bərabərdir, insanların dini azadlığı təmin edilir, dini icmaların uğurlu fəaliyyətləri üçün dövlət tərəfindən lazımi dəstək göstərilir. Bir sözlə, Azərbaycanda dinlərarası münasibətlər qarşılıqlı hörmət və əməkdaşlığa əsaslanır. Tolerantlığın Azərbaycan nümunəsinin ən mühüm nəticələrindən biri ölkəmizdəki dini icmaların bir-biri ilə sıx əməkdaşlığı nəticəsində onların bir-biriləri ilə yardımlaşmasıdır.

Ümumiyyətlə, müxtəlif dini konfessiyalara məxsus ibadət evlərinin tikintisi və bərpasına böyük diqqət və qayğı göstərilməsi ölkəmizdə ənənəyə çevrilib. Əsası Heydər Əliyev tərəfindən qoyulan bu ənənə müasir dövrümüzdə Prezident İlham Əliyevin rəhbərliyi ilə qorunur və inkişaf etdirilir. Günümüzdə bir çox ölkələrdə müşahidə edilən kəskin dini separatizm fonunda ölkəmizdə belə bir nümunənin yaradılması təqdirəlayiqdir.

Azərbaycanda multikulturalizm və tolerantlığa verilən dəyər Prezident İlham Əliyevin bu sahədə bir-birini tamamlayan və sistemli xarakter daşıyan siyasi iradəsinin göstəricisidir. Bir daha sübut olunur ki, ölkəmizdə multikultural ənənələrin qorunub saxlanılması və düzgün təbliği Prezidentin rəhbərliyi ilə uğurla həyata keçirilir. Prezident İlham Əliyev Ulu Öndərin bu məsələ ilə bağlı arzusunu da reallaşdırıb. Sözsüz ki, Ümummilli Lider Azərbaycanın multikultural dövlət imicinin formalaşmasını və dünyada örnək olmasını istəyirdi. Qətiyyətlə demək olar ki, bu gün dövlətimiz buna tam nail olub və multikulturalizm Azərbaycanın etnik simasının əsas cizgilərindən birinə çevrilib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***